**Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydasının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 17 iyun tarixli 353 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydaları" təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 3 may 2001-ci il
87

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2001-ci il 3 may tarixli 87 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması

MÜDDƏTİ VƏ QAYDASI

1. Yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə əhali arasında immunsəviyyənin yüksəldilməsi üçün immunoprofilaktikanı təmin edən ~~Səhiyyə Nazirliyinin,~~ Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, *~~Milli Təhlükəsizlik Nazirliyinin,~~* Ədliyyə Nazirliyinin, *Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin* *~~Hərbi Əks-kəşfiyyat Xidmətinin~~* və idarəetmə orqanlarının müvafiq strukturları tərəfindən profilaktik peyvəndlər aparılır. [1]

2. Profilaktik peyvəndlər tibb müəssisələrində (tibb məntəqələrində, kabinetlərində) tibb işçiləri tərəfindən aparılır.

3. Profilaktik peyvəndlərə cəlb olunan şəxslər əvvəlcədən həkim tərəfindən tibb baxışdan keçirlər və müayinə olunurlar.

4. Epidemioloji vəziyyətin gərginliyinin əsaslandırıldığı halda immunoprofilaktikanı təmin edən müvafiq orqanın göstərişi ilə müxtəlif əhali qrupları arasında immunizasiya tədbirləri aparılır.

5. Profilaktika peyvəndlərin aparılması üçün epidemioloji göstərişlər aşağıdakılardır:

**Tulyaremiya** – xəstəliyin payız-qış mövsümündə şiddətlənməsi təhlükəsi zamanı 4 yaşından başlayaraq bütün əhalini cəlb etməklə təxirəsalınmadan peyvənd tədbirləri aparılır.

Tulyaremiyaya qarşı peyvənd aparılması üçün göstərişlər:

xəstəliyin əsas yoluxma mənbəyi olan gəmiricilərin sayının kütləvi şəkildə artması;

gəmiricilər arasında tulyaremiya xəstəliyinin epizootiyasının aşkar olunması;

insanlar arasında tulyaremiya xəstəliyinin qeyd olunması.

Xəstəlik halları qeyd olunarsa peyvənd tədbirləri maksimum qısa müddət ərzində aparılmalıdır.

**Qara yara** - bir neçə və ya bir neçə qara yara ocağı olan yaşayış məntəqəsi, eləcə də ayrı-ayrı otlaq əraziləri və ya heyvan sürülərinin keçdiyi yollar xəstəliyə görə qeyri-sağlam məntəqə sayılır.

Qeyri-sağlam məntəqələrdə yaşlı əhali arasında profilaktik peyvəndlər infeksiyanın fəallığı qeyd olunandan sonra hər il olmaqla 4 il ərzində aparılır. Bu müddət keçdikdən sonra əgər fəallıq qeyd olunarsa peyvənd tədbirləri yenə də həmin qaydada təkrar olunur.

**Leptosiroz** – xəstəliyə görə epidemik ərazilərdə heyvanlar arasında xəstəlik baş verildiyi halda, həmin ərazidə yaşayan və yoluxma təhlükəsi olan şəxslər arasında, əsas etibarilə epidemioloji mövsümə iki ay qalmış, aprel ayının birinci ongünlüyündən gec olmayaraq profilaktik peyvənd aparılır.

**Taun** – taun əleyhinə müəssisələr tərəfindən aparılan epidemioloji kəşfiyyat əsasında gəmiricilər arasında taun epizootiyasının olması və ya infeksiyanın xəstə şəxs tərəfindən gətirilməsinin mümkünlüyü profilaktik peyvənd aparılması üçün göstəriş sayılır.

Epidemioloji vəziyyətdən asılı olaraq peyvənd müəyyən ərazidə və ya seçmə yolu ilə xüsusilə təhlükə altında olan kontingent arasında aparılır (epizootiya olan ərazilərdə daimi və müvəqqəti əlaqədə olan şəxslər).

**Qarın yatalağı** – epidemioloji göstəricilərə görə (təbii fəlakətlər, su kəmərlərində və kanalizasiya şəbəkələrində iri qəzalar) epidemiyaların şiddətlənməsi təhlükəsi olduqda, eləcə də xəstəlik qeydə alınmış və xəstəliyin baş verib yayılması üçün təhlükə gözlənilən yaşayış məntəqələrində, ayrı-ayrı yataqxanalarda, kazarmalarda və digər kompakt yaşayış yerlərində yaşayanlar arasında qarın yatağına qarşı kütləvi profilaktik peyvənd aparılır.

6. Müxtəlif yoluxucu xəstəliklərə qarşı profilaktik peyvəndlər Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən təsdiq edilmiş təlimatlar üzə aparılır.

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 iyun 2003-cü il tarixli 73 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 6, maddə 342**)
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 2004-cü il tarixli 154 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 10, maddə 871**)
3. 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** )
4. 30 noyabr 2020-ci il tarixli **474** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 4 dekabr 2020-ci il, 254,**

Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1417)

## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

-

---

[1] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 iyun 2003-cü il tarixli 73 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, 6, maddə 342**) ilə "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və Qaydası"nın 1-ci bəndinə "**Ədliyyə Nazirliyinin**" sözlərindən sonra "**Dövlət Sərhəd Xidməti**" sözləri əlavə edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 2004-cü il tarixli 154 nömrəli qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, 10, maddə 871**) ilə "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılması müddəti və Qaydası"nın 1-ci bəndindən "Hərbi Əks-kəşfiyyat Xidmətinin" sözləri çıxarılmışdır.

22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585**) ilə "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydası"nın 1-ci hissəsindən "**Milli Təhlükəsizlik Nazirliyinin**," sözləri çıxarılmışdır və həmin hissəyə "**Ədliyyə Nazirliyinin**," sözlərindən sonra "**Dövlət Təhlükəsizliyi Xidmətinin**," sözləri əlavə edilmişdir.

30 noyabr 2020-ci il tarixli **474** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 4 dekabr 2020-ci il, 254, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 11, maddə 1417)** ilə "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydası"nın 1-ci hissəsindən **"Səhiyyə Nazirliyinin**," sözləri çıxarılmışdır və həmin hissədə "**Dövlət Sərhəd Xidməti**," sözləri "**Dövlət Sərhəd Xidmətinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.